# KEÇMİŞDƏN GƏLƏN SƏSLƏR

*Mətni transliterasiya edən və çapa hazırlayan*
***Sona Xəyal (Hadiyeva)***
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*

## NİGAR RƏFİBƏYLİNİN QEYRİ-MƏTBU MƏKTUBLARI

*Xalq şairi Nigar Rəfibəyli XX əsr Azərbaycan ədəbiyyatının çox tanınan, oxucular tərəfindən böyük məhəbbətlə sevilən qadın şairidir. O, Azərbaycanın ilk səhiyyə naziri Xudadat bəyin qızı, öz yazdığı kimi "Şanlı nəsillərin yadigarı"dır. Rəsul Rzanın arxivindəki qeyri-mətbu məktubları transfoneliterasiya edərkən Nigar Rəfibəylinin 23 məktubuna rast gəldik. Onun həyat yoldaşı xalq şairi Rəsul Rzaya ünvanladığı olduqca səmimi və məzmunlu məktublar mövzu rəngarəngliyinə görə diqqəti çəkir. Oxucular Anarın "Sizsiz", "Mübarizə bu gün də var, yarın da" və s. əsərlərində ata-anasının bir çox məktubları ilə tanış olmuşlar. Rəsul Rzanın qeyri-mətbu məktublarından bir neçəsini əvvəlki məqaləmizdə "Əlyazmalar yanmır" jurnalının oxucularına çatdırmışdıq. Bu yazımızda isə Nigar Rəfibəylinin məktublarını təqdim edirik.*

*Məktubların 21-i Rəsul Rzaya ünvanlanmışdır.*

Ay vəfasız!

Nə üçün cavab vermirsən? Anamdan da heç bir xəbər yoxdur. Bəlkə Bakının isti günü camaatı arıdıb dənizə tökübdür. Amma qəzetələr bu barədə bir şey yazmayıb. Bu gün ayın 17-sidir. Yalnız bir məktubun gəlib 10 gün müddətində. Daha ikisini yaza bilməz idin? Bəlkə məşğulsan. Onda bir müsəlman tap və tapşır ki, heç olmasa nə vəziyyətdə olduğunuzu mənə xəbər versin.

Bizim dərslərimiz çox ciddi davam edir. Bəziləri çox ağırdır. Mühacir rus ədəbiyyatının Efreli..dir. Mən keçdiyimiz yazıçıların bütün əsərlərini bu il oxumaq fikrindəyəm. Əgər vaxt çatmasa, yarısını yaya saxlayacağam. Daha başqa şeylər haqqında yazmıram. Həm hələ səndən məktub yoxdur. Dünən bizi evdən bir oğlan axtarırmış. Nişanələrindən Məqsud olduğunu anladım. Bəlkə də o deyil. Yenə gələcəyini söyləmiş. Səndən məktub gətirəcək, ümidilə, onu səbirsizliklə gözləyirəm. Bəlkə də heç sən onu görüb məktub verməmişsən...

*Hələlik. N.R.*
*17/ IX-33q Moskva*

***

*Yenə mavi gözlər dumanlandımı?*
*Bu axşam sevgilim bizi andımı?*
*Söndürsən qarlarda Şimal günəşin,*
*Kim oldu o gecə cananın eşi?!*

Rəsul, Rəsul, sən indi uzaq Şimalın qarlı qoynunda sakit qış gecələri dinləyir, təbiətlə baş-başa onun gözəlliklərini yavaş-yavaş yaşayırsan. İndi ocaqdakı odunlar çırtdayır, lampanın yumşaq işığı otağına həzin bir kölgə salmışdır. Sən pəncərədən təmiz qarları, batan axşam günəşini seyr edirsən, kim bilə xəyalından nələr keçir..

*Görmüsən qəmküsarı kimdir,*
*Bizdən ki usandı, yarı kimdir?!*

Rəsul! Sənin belə uzun müddət üçün Bakıdan ayrılıb getməyini eşidəndə, xüsusilə, şairlər hamısı sənə xoşcət (bəlkə höcət-S.X.) deyirlər, amma sən doğrudan da olduğun vəziyyətindən razısanmı? Doğrudan da xoşbəxtsənmi? Mən də sənə həsəd edirəm. Ancaq insan o qədər doymaz bir əjdəhadır ki, heç vaxt öz vəziyyətindən razı qalmayır. Mən sənin özünü eşitmək istəyirəm. Sən isə bu barədə bir şey yazmamışsan. Rəsul! Bizdən lap arxayın ol. Sən gedəndən sonra iki kərə Anar çox kapriz elədi. Mən bunu ancaq sənin getməyinlə izah edirəm. Gecələr oyanıb söyləyir ki: "Papa məni jəna keçil" və sənə aid xatirələrlə yaşayırdı. İndi də hərdənbir yadına düşür, ayaqlarını yerə döyüb başlayır ki: "Papu xoçu! Day papy!" Sən plastinkanı göndərən günü onda özgə bir aləm vardı. Hamını çəkib patefonun yanına sürüyür və papa, Anal ... deyə böyük bir həyəcanla hamıya başa salırdı. Nə isə... Onun işlərini yazmaqla qurtaran deyil.

Biz hamımız yaxşıyıq. Məryəm xanım lap tərlan kimidir. Kübra bacıdan bu gün məktub gəlmişdi, qədeş də yaxşıdır. Anam hələ də xəstədir, axır günlər bizdə qalırdı, indi babatdır. Kruqlyakov mənə telefon etmişdi ki, Rəsul Azərkino məsələsində hələlik tələsməsin. Bir az gözləsən yaxşıdır. Azərkinodan bir nəfər telefon edib ssenarinin vəziyyətini və sənin adresini xəbər aldı. Əgər sənə pul lazım olsa, mənə xəbər ver, göndərim.

Rübailəri komitetdə oxudum, bəyəndilər, qəbul etdilər. Qəzəlləri də oxudum, onlar da qəbul olundu. Rəsul, Mayakovski haqqında mən fikri burada ikən sənə demişdim. Yenə də sənə siqnal verirəm. Onun əsərlərini və haqqında göndər, gecikdirmə, və yubileyinin keçirilməsi barədə komissiyada olanlardan birisilə heç olmasa əlaqə saxla. Bunu hər bir borcdan qabaq sən Mayakovskiyə olan hörmətin üçün eləməlisən. Sənin "Yaltaqla"rın çıxmışdı qəzetədə. Rəfili deyəsən komitetdən getmək istəyir. Qəti bilmirəm, amma belə ötəri eşitmişəm. Sən mümkün olsa, aprelin 15-nə, yaxud lap axırlarına qədər orada qal, Nizamini tamam qurtar, sonra gəl. Burada heç bir maraqlı şey yoxdur. Orada qalıb əsər yazsan, daha yaxşıdır. Mən indi başlamışam Nəvaini tərcümə etməyə. Əgər aprelə qədər qurtara bilsəm, bəlkə mən də gələrəm. Sən bu barədə öz fikrini mənə yaz. Rəsul! Yaxşı işlə, yaxşı istirahət et, gəz, dolan, bizdən heç nigaran qalma. Hamı sağ-salamatdır. Rəşid nə qayırır? Biz ondan çox nigaranıq. O öküzə denən, anama kağız yazsın. Tez-tez kağız göndər, vəziyyətindən bizi agah et.

*Bir rəhmm edin cigəri qan olanlara,*
*Qərbində ruzigarı pərişan olanlara...*

Hamıdan sənə çoxlu salam var. Səməd dedi ki, Yəqubovla sənin getməyin barədə danışmışdır, o da icazə vermişdir. Arxayın ol. Məndən tanışlara salam söylə. Öpürəm səni.

*Nigar*
*25/II-40 il*

İndiyə qədər adresini bilmədiyim üçün sənə məktub yazmırdım. Sən də tez-tez yaz.
D.
*Moskovskaya oblast. St.Doroxovo (bel.jel.dor). maleevka Dom oxdıxa pisateley. Rasul Rza. Baku, Yefima-Saratovtsa 36 kv. 21. N.R.*

***

Rəsul!
Dünən məktubunu aldım. Şeirlər üçün də təşəkkür edirəm. Lakin mənim istədiklərim onlar deyildi. Nə isə...
Mənim nə vaxt gələcəyimi xəbər alırsan. İyulun əvvəllərində yəqin ki, Bakıda olaram. Dərslərimiz 8-də kəsilir. 15, 21-də, 17 və 24 zaçotlarım vardır. Ədəbiyyatdan, diamatdan, mü-

asir rus dilindən və la... tarixindən. Zaçotlar üçün indidən əsirik. Çox bərk keçəcək. Mənə dua elə. Darıxma, yaxında görüşərik. Bu günlər Moskvada çox yağmurlu günlər keçir. Mən lap təngə gəlmişəm. Qış paltosunu yenidən geymişik. Biz tərəflərin keyfi necədir? Mən bu günlər yəqin ki, uzun yaza bilməyəcəyəm. Çünki başımız bərk qarışıqdır. Qoy anam nigaran olmasın. Bu otkrıtkanı sizə iclasda yazıram. Yaxında klubda yazmışdım. Sabah sənə bir məktub daha yazmağa çalışaram. Darıxma, az qalıb. Salam sizi....(oxunmur)

*Nigar.*

*(Tarix oxunmur, amma yazıdan təxmin edilir.)*

***

Rəsul!

Bu günlərdə sənə uzun bir məktub yazmışdım. Yəqin ki, almış olarsan. Dünən Rəşidin sənə vurduğu teleqraf geri qayıtdı. Onun yadından çıxıb adresdə pervtso yazmayıb. Yalnız paralelnaya ulitsa yazıb. Ona görə də teleqraf geri qayıdıb. Danışıqınızda ora qətiyyən səndən geri zakaz bir söz tapşırarsaq on dəfə qayıdar ki, yadımdan çıxdı. Mənim haqqımda danışılan söhbətlərə inanma. Mən özümü çox gözəl hiss edirəm. Bu günlərdə Moskvada çox şiddətli marozlar keçdi. Şükr olsun Allaha ki, hamısından salamat çıxmışam. İndi təxminən soyuq azdır. Yəqin Moskvadan xəbər aparanlar danışmağa söz tapmadıqları üçün fantaziyalarına vasitə edirlər. Hər halda elə bir şey olsa, özüm hər kəsdən əvvəl sənə xəbər verərəm. Mənim dərslərim hər zamankı şiddətlə davam edir. Sənin məktublarını vaxtında alıram. Anam məni çox düşündürür. Onun haqqında mənə yaz. Darıxmasın, vaxt az qalıb. Bu günlərdə sənə yenə də uzun məktub yazaram. Bunu, sənə heç çatmasa, yazıram. Saraya, Surəyə, Turəyə salam söylə.

Hələlik sağ ol.

*(Tarixsiz).*

*Baku, Pervaya paralelnaya ul. d N-40*

*Rasulu Rzayevu*

*Moskva 9. M.Kozixinskiy per. d 8 kv 17*

*N.Rafibeyli.*

***

Rəsul! Keçən dəfə səninlə telefonla danışarkən Anarın birinci sözü əsərini xəbər almaq oldu. Bu məndə çox böyük təsir oyatdı. Yəqin ki, sən də bu sözə biganə qalmazsan! Rəsul o sənin oğlunun səsi idi, o sənin xalqının gələcəyinin səsi idi. Bu sadə bir uşaq marağı deyildi. Bu tələb və haqlı tələb idi. Sən əgər bu gün yazmasan, sabah ona hansı üzlə cavab verəcəksən. Sənin yazmadığın üçün perejivat eləyir. Dünyalar qədər sevdiyin balaca nazlı Fidan qızın da səndən bir şeir istəyəcək. Onlar balacadır, əqlləri kəsməyir, ancaq başa düşəndə o da sənə deyəcək ki, ata, sən bir zaman təzə, ətraflı, alovlu şeirlərlə ədəbiyyat meydanına atılmısan, bəs sonra. Sonra nə oldu? Barıtın çatmadımı? Rəsul, zarafatsız, bu gün sənin məktubunu aldım, çox sevindim, işləməyinə, təmamən ciddi yanaşdığına, əməlli yanaşdığına sevindim. Mənə elə gəldi ki, açarını axtardığın qapını şərəflə açacaq və qəhrəmanlıqla onun dolaşıq və çətin yollarından yuxarı qalxacaqsan, mən səndən bunu gözləyirəm! Başqa cür də ola bilməz! Bu sənin ən yaxın dostunun arzusudur! Ancaq çətin, sənin bu çətin və zəhmətli yolda sənə bir məsləhət verə bilərəm. Zəhmətə qatlatmaq, səbr, təmkin, bir də həyatın qanadları çox yüksəklərə qalxanda onu zəngin və rəngarəng həyat lövhələri üzərinə axdırmaq, ordan ilham və qida almaq! Torpağa, həyata bağlı olmayan heç bir xəyal xəyal deyil, həqiqətdir!.. Nə isə. Mənalı-məzmunlu, dolğun, təzə və həyati bir əsərlə gələcəyinə əminəm!.. Poemanı qurtaran kimi mənə teleqram vur, mən o günü bayram edəcəyəm! Zəhmətdən və yazıçılıqdan kənar bizim heç bir

sevincimiz ola bilməz. Puşkin üzərində işləmək ona mane olmasa, işlə. Əvəz hələ rayondadır. Bakıda başqa yenilik yoxdur, həşərat haqqında düşünmə. O Cəfər hətta düşünməyə dəyməz. Yaz, yarat, övladlarının və xalqının yanında üzün ağ olsun. Onu bil ki, həyatda elədiyin bu xırda xətaları bağışlamağa mənən özündə cürət tapanda yaradıcılıq yollarındakı kəsirdən heç bir vasitə ilə keçə bilmərəm!.. Sənə istirahət, gözəl ilham və yaradıcılıq müvəffəqiyyətləri arzulayıram. Sənin dostun və yoldaşın Dovşan.

Öpürəm.

*25/X-48 Bakı.*

***

Rasi!

İndicə məktubunu aldım. Xeyli sevindim. Şonkanın şirin dilinə qurban olum. Heç məni yada salırmı? Mənim burada müalicə naqruzkası ilə başım çox qarışıqdır. Ancaq axşamlar boş olanda çox qüssələnirəm. vaxtım müalicə və kitab oxumaqla keçir. Ara-bir parkda Mirzəyə rast gəlirəm, hər ikimiz müalicəyə tələsdiyimiz üçün söhbətlər çox müxtəsər olur. Siz necəsiniz? Moskvaya getmirsən ki? mümkün olsa, mən gələnə qədər getməzdin. Pyesin neçə pərdəsini yazmısan?

Məndən salam anama, cicimə, dadya uşaqlarına, məni yad edən bütün qohum və dostlara. Anar və Fidan niyə mənə kağız yazmayıblar? Vəfasızlar. Şonka hamıdan vəfalıdır.

Öpürəm hamınızı.

*Sənin Dovşanın*
*4/IV-52 il.*

***

*Nigar Rəfibəylinin Rəsul Rzanın bacılarına yazdığı məktub da maraqlıdır:*

Əziz bacılarım!

İndiyə qədər sizə məktub yazmadığımdan inciməyin. Səbəb yalnız Moskvanın acı havasına uyuşmaq olduğumdur. İndi demək olar ki, əl-ayağımı yığışdırmışam. Və arxayın oturub sizə məktub yazıram..

Əvvəla deyim ki, çox darıxıram. Heç keçən il belə darıxmağım yox idi. Bir tərəfdən bizim qoruqlardan sə-ləki??? kimi olmadığın??? adama lap .... Çoxusu qurtarıb gedib. Yaxud hərə bir tərəfə qaçıbdır. Mən lap dərədə çaqqal qalan kimi qalmışam...

Sizdən ayrıldım gəldim. Sizə yaxın və sevgili bacılarım kimi Şimali Qafqaziyanın qarlı dağlarından, Ukraynanın həm rəngli, kömürlü yerlərindən, Rusiyanın çöllərindən keçirdim getdim.. və heş unutmadım. Yəqin ki, siz də məni unutmamışsınız. Sizi belə qo... eləyib bir məktub yazdığımdan inciməyin, sonra ayrı-ayrı da yazacağam. Siz də mənə yazın.

Suranın işi necə oldu? Bu barədə mənə məlumat verin. Çox maraqlanıram. Əgər düzəlməyib başqa yoldaşlara müraciət etmək olar. Sara bacı yenə öz oğurduğuna davam edir. Turə də ... olacaq. Qış tətilində siz də Moskvaya gəlin. Mən həm də şavavlaram. Ancaq isti geymək lazımdır. Anam yəqin ki, hələ Ağdamdan qayıtmamışdır. Bakıdan bir məktubunu aldım. İndisə həm də nigaranam..

Cicimin kefi necədir? Xəstələnməyir ki? məndən şoxlu salam söyləyin. Moskva son zamanlar həm də yağmurlu keçdiyi üçün mən tez-tez xəstələnirəm. Ciddi bir şey olmasa da, burnum axır, bir-birinə qarışır.

Görürsünüzmü mən bu qədər cahan maştabında olan hadisələrdən sizi xəbərdar etdim. Siz də mənə ... və haqqınızda yazın. Məndən Kübra bacıma, uşaqlarına, Rəsula və başqa qardaşlara salam söyləyin. Məktub yazın və məni unutmayın.

Öpürəm üçünüzü də.

*Bacınız Nigar*
*Moskva, 1939, 19 sentyabr*